# HÜQUQ

**UOT 321 (091); 34 (091)**

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASININ HÜQUQİ ƏSASLARI

**M.F.MƏLİKOVA, X.C.İSMAYILOV**
***Bakı Dövlət Universiteti***
***mf_melikova@mail.ru***

*Azərbaycan xalqının apardığı istiqlal mübarizəsi XX əsrdə iki dəfə onun müstəqil dövlətçiliyinin qurulması ilə nəticələnmişdir. Əsrin əvvəllərində və əsrin sonunda qazanılmış bu müstəqilliyin ictimai-siyasi, sosial-iqtisadi zəminləri ilə yanaşı, hüquqi zəminlərinin mühüm rolu olmuşdur. Məqalədə iyirmi bir il əvvəl bərpa edilmiş dövlət müstəqilliyimizin hüquqi əsasları nəzərdən keçirilmiş, dövlət müstəqilliyinin bərpasını şərtləndirən vacib normativ hüquqi aktlar araşdırılaraq təhlil edilmişdir.*

**Açar sözlər:** müstəqillik, bəyannamə, suverenlik, Konstitusiya qanunu, Konstitusiya Aktı, konstitusion-hüquqi status, hüquq və azadlıqlıqlar

Keçmiş Sovetlər İttifaqının daxilində baş verən və ictimai-siyasi həyatın bütün sferalarını əhatə edən proseslər son anda bu ölkənin parçalanmasına və süqutuna gətirib çıxardı. Bu süqutu şərtləndirən ən mühüm amillərdən biri yerlərdə milli azadlıq hərəkatının geniş vüsət alması, milli istiqlal məfkurəsinin bütün proseslərin önündə durması idi. Belə bir vəziyyətdə 1989-cu il sentyabrın 23-də «Azərbaycan SSR-in suverenliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya qanunu (9, 20) qəbul edilmiş və həmin qanunla SSR İttifaqı ilə Azərbaycan arasındakı səlahiyyətlər çərçivəsi respublikanın suveren statusuna uyğun şəkildə müəyyənləşdirilmişdi. Qanunun 1-ci maddəsinin 2-ci hissəsinə görə, Azərbaycan SSR-in suverenliyi Azərbaycan tərəfindən öz ərazisinin hər yerində (Naxçıvan MSSR və DQMV də daxil olmaqla) respublikanın bütün çoxmillətli əhalisinin xeyrinə qanunvericilik, icra və məhkəmə hakimiyyətinin müstəqil həyata keçirilməsində ifadə olunurdu. Həmin qanunun 2-ci maddəsinə uyğun olaraq, Respublikada bütün siyasi, iqtisadi, sosial-mədəni quruculuq, onun inzibati ərazi quruluşu ilə əlaqədar bütün məsələləri Azərbaycan SSR müstəqil həll etməli idi və respublikanın ayrılmaz hüququna

aid məsələlərin həllinə hər hansı müdaxilə onun suveren hüquqlarının tapdalanması kimi qiymətləndirilirdi.

Azərbaycanın konstitusion-hüquqi statusu onun ali hakimiyyət orqanının razılığı olmadan dəyişdirilə bilməzdi və İttifaqla münasibətlər ölkənin suverenliyinə əsaslanan müqavilə üzrə qurulmalı idi. Digər müttəfiq respublikalarla münasibətlərə gəldikdə isə həmin münasibətlərin hüquq bərabərliyi, suveren hüquqlara qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qurulması nəzərdə tutulurdu (9, 5). Bu qanunun müasir dövrümüz üçün əhəmiyyətli cəhətlərindən biri kimi respublikanın suverenliyinin Qarabağın dağlıq hissəsi də daxil olmaqla Azərbaycanın bütün ərazisinə şamil olunmasının və onun ərazisinin yalnız respublikanın ali hakimiyyət orqanının qərarı əsasında onun bütün əhalisi arasında keçirilən xalq səsverməsi (referendum) ilə ifadə edilmiş razılığı olmadan dəyişdirilə bilinməməsinin təsbit edilməsini göstərmək olar (m.5).

Azərbaycanın səlahiyyəti yalnız respublikanın özünün könüllü surətdə SSR İttifaqının ixtiyarına verdiyi məsələlərlə məhdudlaşırdı. Bununla yanaşı, Sovetlər birliyinin tərkibindən azad surətdə çıxma (yenə də respublika əhalisinin ümumxalq səsverməsi yolu ilə), respublikanın təbii və maddi-texniki ehtiyatlarına dair sərəncam vermək (Azərbaycanda torpaq, yerin təki, meşələr, sular və digər təbii ehtiyatların respublikanın dövlət mülkiyyəti olaraq onun xalqına məxsusluğu təsbit olunurdu), Azərbaycanın iqtisadi müstəqilliyinin təmin edilməsi üçün tədbirbər görülməsi, yəni öz ərazisində kompleks iqtisadi, sosial və mədəni inkişafın təmin edilməsi, respublikada dövlət iqtisadi və sosial inkişaf planlarının, dövlət büdcəsinin işlənib hazırlanması və təsdiqi, respublika ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarətin, xalq təsərrüfatının bütün sahələrinə rəhbərliyin həyata keçirilməsi və s. Azərbaycanın müstəsna hüquqları kimi müəyyən edilirdi.

Qanunla respublikanın səlahiyyətlərinə Azərbaycan Konstitusiyasının qəbul edilməsi, Azərbaycanın tərkibində muxtar respublika və vilayətlər təşkil edilməsi və onların ləğv edilməsi, respublikanın suverenliyinin, vətəndaşların hüquq və azadlıqlarının qorunması, ədalət mühakiməsini həyata keçirən orqanların təşkili və fəaliyyəti sahəsində münasibətlərin müstəqil olaraq qaydaya salınması, dövlət dili kimi təsbit edilmiş Azərbaycan dilinin dövlət orqanlarında və ictimai orqanlarda, mədəniyyət, maarif müəssisələrində və başqa idarələrdə işlədilməsinin təmin edilməsi, dövlət dilinin hərtərəfli inkişafına dövlət qayğısı göstərilməsi və s. daxil idi. Xüsusən də, Sovetlər birliyinin mövcudluğu ərzində Azərbaycanın malik olmadığı bir sıra hüquqlar – Azərbaycanın xarici dövlətlərlə bilavasitə münasibətlərə girmək, onlarla müqavilə bağlamaq, diplomatik nümayəndələr və konsulluq nümayəndələri göndərmək və qəbul etmək, beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüquqlarına malik olması qanunla ilk dəfə olaraq müəyyənləşdirilirdi (m.14).

1990-cı il mayın 18-də respublikada prezidentlik institutu təsis edildi. Azərbaycan Respublikasının dövlət başçısı olan Azərbaycan Respublikasının

Prezidenti ilkin olaraq respublikanın Ali Soveti tərəfindən 5 il müddətinə seçilmişdi. Lakin «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında» 26 iyun 1991-ci il tarixli qanuna (11, 15) görə, Prezidentin səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında respublika vətəndaşları tərəfindən seçilməsi nəzərdə tutulurdu. Azərbaycan Respublikasının Prezidenti mühüm səlahiyyətlərə malik idi. Bir çox funksiyalarla yanaşı, Prezidentin zəruri hallarda müvəqqəti prezident idarə üsulu tətbiq etmək hüququ müəyyən edilmişdi. Onun tərəfindən Konstitusiya və qanunların əsasında verilmiş fərmanlar respublika ərazisində məcburi qüvvəyə malik idi.

Azərbaycanın daxili və xarici siyasətinin əsas istiqamətlərinin həyata keçirilməsi, respublikanın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər hazırlanması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Prezident Şurası adlanan qurum fəaliyyət göstərirdi. Şuranın üzvləri respublika Prezidenti tərəfindən təyin edilirdilər. Nazirlər Sovetinin sədri vəzifəyə görə Prezident Şurasının tərkibinə daxil idi. Respublika Ali Sovetinin sədri Prezident Şurasının iclaslarında iştirak etmək hüququna malik idi.

İctimai-siyasi və hüquqi proseslərin davamı kimi 1991-ci il mayın 25-də «Azərbaycan SSR-in iqtisadi müstəqilliyi haqqında» Konstitusiya qanunu (10, 12) qəbul edildi. Respublikadakı bütün təbii sərvətlərin mülkiyyətçisinin Azərbaycanın özünün, onun əhalisinin olması təsbit edildi. Bütün sferalarda iqtisadi münasibətlərin müstəqil şəkildə müəyyənləşdirilməsi respublikanın hakimiyyət və idarəetmə orqanlarının preroqativi hesab edildi. Bütün müəssisələrin respublikanın yurisdiksiyasına keçməsi nəzərdə tutuldu. Bir qədər sonra respublikanın Ali Soveti demokratik qüvvələrin tələbi ilə çağırılmış növbədənkənar sessiyasında 1991-ci il avqustun 31-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə» qəbul etdi. Bəyannamə Azərbaycan xalqının dövlət quruluşunun çoxəsrlik ənənələrinin bərpası yolunda atılmış mühüm bir hüquqi addım idi. Bəyannamədə Azərbaycanın XX əsrin əvvəllərində qurmuş olduğu ilk Cümhuriyyətin hansı dəyərlərə əsaslanmasına, onun süqutundan keçən 70 il ərzində Azərbaycan xalqının müxtəlif məhrumiyyətlərə, təqiblərə və kütləvi cəza tədbirlərinə məruz qalmasına, onun təbii ehtiyatlarının, milli sərvətlərinin çapılıb talanmasına, zaman-zaman milli ləyaqətinin tapdalanmasına baxmayaraq, bu xalqın dövlət müstəqilliyi uğrunda mübarizəni davam etdirməsi və bütün bunların sonu olaraq dövlət müstəqilliyimizin bərpası zamanının yetişməsi qeyd olunurdu.

Nəhayət, 21 il əvvəl – 18 oktyabr 1991-ci il tarixində «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nın (5, № 219) qəbul edilməsi respublikanın müstəqil dövlətçiliyinin hüquqi əsasını möhkəmləndirdi. Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün başlanğıc sayılan bu Akt respublikanın dövlət quruluşunun, siyasi və iqtisadi sisteminin əsaslarının təsisini nəzərdə tuturdu. Dekabrın 29-da keçirilən və respublika əhalisinin 95 %-dən çoxunun iştirak etdiyi ümumxalq səsverməsində Azərbaycan xalqı yekdilliklə Azərbaycan Respublikasının

dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına tərəfdar olduğunu izhar etdi. Sovetlər birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş elədiyi imkanlar nəticəsində xalqımız XX yüzillikdə artıq ikinci dəfə idi ki, müstəqillik bayrağını qaldırırdı. Bu, siyasi tariximizin XX əsrdəki ikinci parlaq səhifəsi idi. Çoxları elə güman edirdilər ki, sovetləşmə xalqları milli mənlik duyğusundan məhrum etmiş, onlara şanlı tarixi keçmişlərini unutdura bilmişdir. Lakin 1920-ci ildə mövcud tarixi şəraitin doğurduğu qarışıqlıqlar içərisində itirilən milli dövlətçiliyin əsrin sonlarında yenidən bərpası xalqımızın varlığında milli azadlıq ruhunun hər zaman yaşadığından xəbər verirdi.

Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü başlandı. Bu dövrün səciyyəsi ümummilli lider Heydər Əliyevin «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında» 20 mart 2001-ci il tarixli Fərmanında daha mükəmməl şəkildə öz ifadəsini tapmışdır. Fərmanda qeyd olunduğu kimi, «Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxartdı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi. 1995-ci ilə qədər bəzi sahələrdə bir sıra müsbət dəyişikliklər əldə edilsə də, ölkədə bütün istiqamətlərdə genişmiqyaslı islahatların ardıcıl şəkildə həyata keçirilməsi məhz tam ictimai-siyasi sabitliyin təmin edilməsindən sonra mümkün oldu (6, 4-5).

Altı bölmə və otuz iki maddədən ibarət olan «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nda Azərbaycanın müstəqil, dünyəvi və unitar dövlət olduğu qeyd edilir. Konstitusiya Aktının 12-ci maddəsinə görə, bu dövlətin suveren hakimiyyəti daxili məsələlərdə ancaq hüquqla, xarici məsələlərdə isə yalnız suveren hakimiyyətin daşıyıcısı olan Azərbaycan xalqının azad surətdə razılıq verdiyi müqavilələrdən və sazişlərdən irəli gələn müddəalarla məhdudlaşdırılır. Azərbaycan Respublikasının

müstəqilliyinə qarşı yönəldilən hər hansı hərəkət suveren dövlətin daxili işlərinə qarışmaq kimi qiymətləndirilir və beynəlxalq hüquq normalarına uyğun olaraq bu hərəkətlərə cavab verilməsi nəzərdə tutulurdu.

Azərbaycan Respublikasında suveren hakimiyyətin Azərbaycan xalqına məxsus olması, Azərbaycan xalqının heç bir hissəsinin, ayrılıqda heç bir fərdin suveren hakimiyyətin həyata keçirilməsi ixtiyarını mənimsəyə bilməməsi, xalqın öz suveren hakimiyyətini bilavasitə referendum vasitəsilə və Azərbaycan Respublikasının Parlamentinə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirmələri, Azərbaycan xalqının öz iradəsinin ifadəsi kimi Azərbaycan Respublikasının demokratik quruluşuna və qanunun aliliyinə təminat verməsi, öz idarəetmə formasını seçməkdə, başqa xalqlarla öz münasibətlərini müəyyənləşdirməkdə, siyasi, iqtisadi və mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirməkdə xalqın ayrılmaz, inkaredilməz və bölünməz hüquqa malik olması Konstitusiya Aktı ilə təsbitlənirdi (m.9, 10, 11).

Konstitusiya Aktına əsasən, Azərbaycan idarəetmə formasına görə prezidentli respublikadır. Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipinə əsaslanır. Qanunvericilik hakimiyyəti parlamentə, icra hakimiyyəti prezidentə, məhkəmə hakimiyyəti isə Azərbaycan Respublikasının məhkəmələrinə məxsusdur. Konstitusiya Aktının 15-ci maddəsində Azərbaycan ərazisində yalnız respublikanın Konstitusiyasının və qanunlarının qüvvədə olması göstərilir. Qanunvericilik hakimiyyətinin Azərbaycan Respublikasının Konstitusiyası ilə, icra və məhkəmə hakimiyyətinin isə Azərbaycan Respublikasının Konstitusiyası, qanun və hüquq ilə məhdudlaşdırılması müəyyən edilir. Həmin maddədə qeyd edildiyi kimi, Konstitusiya parlamentin qərarı ilə respublikanın bütün əhalisi arasında ümumxalq səsverməsi yolu ilə qəbul edilməli idi.

Respublikanın ərazisi və sərhədlərinin toxunulmazlığı xüsusi vurğulanırdı. Yalnız Azərbaycan Respublikası Parlamentinin qərarı ilə respublikanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının razılığı əsasında sərhədlərdə dəqiqləşdirmə və düzəliş aparıla bilərdi. Respublikanın bütün təbii ehtiyatları yalnız özünə məxsus olmalı, iqtisadi fəaliyyət bazar münasibətləri və azad sahibkarlığa əsaslanmalı idi. Konstitusiya Aktında vətəndaşların seçib-seçilmək, qanunla tənzimlənən tətil hüququ, siyasi partiyalar və birliklər yaratmaq hüququ, respublikanı müdafiə etmək, qanunlara danışıqsız əməl etmək vəzifələri və s. təsbit olunmuşdu. Konstitusiya Aktının müddəalarından irəli gələrək və hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikası digər dövlətlərlə münasibətlərini dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələrin dinc yolla nizama salınması, başqa dövlətlərin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək, xalqların bərabərliyi və

onların öz müqəddəratını təyin etməsi hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq hüquqi öhdəliklərin yerinə yetirilməsi prinsipləri əsasında qurur.

Konstitusiya Aktı insanların hüquq və azadlıqlarının təminatı ilə bağlı lakonik, lakin dərin məna kəsb edən bir çox normalar nəzərdə tutmuş və bu istiqamətdə dövlətin vəzifələrini müəyyənləşdirmişdir. Belə ki, 17-ci maddədə qeyd edildiyi kimi, Azərbaycan Respublikası Azərbaycan xalqının birliyini qorumalı, ayrıca şəxsin, ailənin, ictimai birliklərin və digər kollektivlərin mənafeyinə uyğun surətdə qanundan irəli gələn hüquqları və azadlıqları müəyyən edərək və bunlara hörmət göstərilməsini təmin edərək hüquq qaydası yaratmalı; sosial fəallığın bütün növlərinə rəvac verməli və onları əlaqələndirməli, bütün vətəndaşların mənafelərinin qanuna əsasən uzlaşmasını təmin etməli, hər bir şəxsin azad inkişafı üçün bərabər şərait yaratmalı; abad yaşayış sahəsi almaqda və ondan daimi istifadə etməkdə, fərdi mənzil tikintisində vətəndaşlara kömək göstərməli; güzəranı daha ağır olan əhali qruplarının vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsi qayğısına qalmalı, onların insana layiq həyat səviyyəsini təmin etməyə çalışmalı; vətəndaşların həyatına, sağlamlığına, şəxsi azadlığına və təhlükəsizliyinə edilən qəsdlərdən onların müdafiəsini təmin etməli, vətəndaşların sağlamlığını qorumalı, sağlam ekoloji mühitin mühafizəsinə kömək göstərməli, dövlətin əzəli və təbii özəyi olan ailəni, habelə anaları və uşaqları himayə etməlidir.

Yeni Konstitusiya qəbul edilənədək 1978-ci il Azərbaycan Konstitusiyasının 1991-ci il Konstitusiya Aktının müddəalarına zidd gəlməyən müddəaları öz hüquqi qüvvəsini saxlayırdı. Keçmiş Sovetlər birliyinin Azərbaycan ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının dövlət mülkiyyəti hesab olunurdu. Bununla yanaşı, Sovetlər birliyinin Azərbaycan Respublikasının hüdudlarından kənarda olan, lakin İttifaqın tərkibində olduğu dövrdə Azərbaycanın milli gəliri, təbii və başqa ehtiyatları hesabına yaranmış əmlakı həmin əmlakın yaranmasında respublikanın töhfəsinə müvafiq həcmdə, müqavilə üzrə Azərbaycan Respublikasına keçməli idi.

Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulundan sonra dövlətin dayaqlarının möhkəmlənməsi və ictimai-siyasi sabitliyin bərqərar edilməsi dövlət quruculuğu işlərinin, əsaslı sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsinə imkan yaratdı. Məhz bu dövrdən etibarən, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsi istiqamətində köklü siyasi, sosial-iqtisadi və hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsi işinə başlanıldı.

Müstəqilliyin ilk illərində 1991-ci il Konstitusiya Aktına əsasən, dövlət müstəqilliyinin bərpası elan olunana qədər qüvvədə olmuş, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən, qanunla müəyyənləşdirilmiş qaydada ləğv edilməmiş və ya dəyişdirilməmiş aktların hamısı respublikada hüquqi qüvvəsini saxlayırdı. Eyni zamanda Azərbaycan Respublikasının müvafiq qanunları qəbul edilənədək bir sıra keçmiş SSRİ qanunlarının Azərbaycan ərazisində saxlanılması nəzərdə tutulurdu. 1992-ci il

oktyabrın 28-də bununla əlaqədar qəbul edilmiş qanunda həmin normativ hüquqi aktların siyahısı müəyyənləşdirilmişdi.

Qısa bir zaman kəsiyində dövlət atributları və rəmzləri haqqında, təhsil və səhiyyə haqqında, iqtisadiyyatın və sosial həyatın müxtəlif sferalarının tənzimlənməsi baxımından çoxsaylı qanunlar qəbul edildi. 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası (1, 94) ilə Azərbaycanın dövlət quruculuğunun hüquqi əsasları müəyyən edildi. Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetini və hakimiyyətlər bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Dövlətin əsaslarını müəyyən edərkən Konstitusiya ilk növbədə hər bir demokratik dövlətin ayrılmaz atributları olan təsisatlara xüsusi yer ayırır. Bunların içərisində insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlətin ali məqsədi olması, mülkiyyətin toxunulmazlığına təminat verilməsi, təbii ehtiyatların yalnız dövlətə mənsub olması, Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsinin dövlətin xüsusi diqqət mərkəzində olması, ailəyə və uşaqlara dövlət tərəfindən qayğı göstərilməsi və s. məsələlər mühüm yer tutur. Təkcə onu demək kifayətdir ki, Konstitusiyanın 158 maddəsindən 48-i insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir. Həmin hüquq və azadlıqların gözlənilməsi və qorunması Konstitusiyanın 71-ci maddəsi ilə bir vəzifə olaraq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının üzərinə qoyulmuşdur. 1995-ci il Konstitusiyasında özünün inkişafını tapmış prinsiplərin içərisində – xalqın suverenliyinin təsdiqi; hakimiyyətlərin bölgüsünə əsaslanan, sosial yönümlülüyü ilə seçilən müstəqil, dünyəvi, demokratik, hüquqi, unitar dövlətin təşkili; insan hüquqlarının üstünlüyünün təsdiqi; digər dövlətlərlə münasibətlərin əsası qismində hamılıqla tanınmış beynəlxalq hüquq normalarında əks etdirilən prinsiplərin tanınması; bazar münasibətlərinə, azad sahibkarlığa şərait yaradan, inhisarçılığı və haqsız rəqabəti istisna edən iqtisadiyyatın seçilməsi, dövlət tərəfindən mülkiyyət hüququna təminat verilməsi; yerli özünüidarəetmənin yeni əsaslar üzərində qurulmasının təsdiqi, Konstitusiyanın birbaşa hüquqi qüvvəyə malik olmasının təsbiti və digərləri dövlətçiliyin və hüququn inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının əsas məqsədlərindən biri kimi qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan həyatına, azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsinin başlıca prinsipləri yeni inkişaf mərhələsinin başlanğıcını qoyan Konstitusiyada qanunvericilik yolu ilə təsbit edildi.

Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilatların və qurumların diqqətini Azərbaycana yönəltdi, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratdı.

Azərbaycan xalqının öz sərvəti olan Azərbaycan dövlətçiliyi iyirmi bir illik müstəqil inkişaf tarixində ən müxtəlif çətinliklərlə üzləşərək mürəkkəb

yol keçmişdir. Yeni ictimai-siyasi sistemin təşəkkülü prosesini yaşayan Azərbaycan ona qarşı hələ də davam etməkdə olan hərbi təcavüzə və onun ağır nəticələrinə baxmayaraq, bütün potensialını səfərbər edərək demokratik inkişaf yolunda böyük uğurlar əldə etməkdədir. Müstəqilliyin iyirmi birinci ili ərzində gerçəkləşən milli ideyaların gücü ilə Azərbaycan mürəkkəb və sərt maneələri dəf edərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşması istiqamətində mühüm və qətiyyətli addımlarını atmaqda davam edir.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009, 94 s.
2. Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, 1991-1992, 1-ci kitab, Bakı: Qanun, 1997, 844 s.
3. Azərbaycan Respublikasının Qanunlar Toplusu. I-V cildlər, Bakı, 2000-2005.
4. Azərbaycan Respublikası Hökumətinin Qərarları külliyyatı (1991-2001).
5. «Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında» Konstitusiya aktı. "Xalq" qəzeti, 1991, 7 noyabr, №219.
6. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI - Yeni Nəşrlər Evi, 2001, 360 s.
7. Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasına edilən dəyişiklik və əlavələr (1985-1991-ci illər).
8. Azərbaycan SSR-nin Ali Sovetinin Məlumatları (1985-1991-ci illər).
9. «Azərbaycan SSR-in suverenliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya qanunu. Bakı: Azernəşr, 1989, 20 s.
10. «Azərbaycan SSR-in iqtisadi müstəqilliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya qanunu. Bakı: Azərnəşr. 1991, 12 s.
11. «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı: Azərnəşr, 1991, 15 s.
12. Məlikova M.F. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası // Müdriklik zirvəsi. Bakı, 2003, №4.
13. Меликова М.Ф. Конституция Азербайджанской Республики и права человека. Вестник Бакинского Университети, 1995, №1.
14. İsmayılov X.C. Azərbaycan dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
15. Hüquq ensiklopedik lüğəti / Baş red. AMEA-nın müxbir üzvü M.F.Məlikova. Bakı: AE-nin Baş redaksiyası, 1991, 544 s.


## ПРАВОВЫЕ ОСНОВЫ ВОССТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА


**М.Ф.МЕЛИКОВА**


### РЕЗЮМЕ


В статье основное внимание уделяется правовым основам образования Азербайджанской Демократической Республики. На основе анализа нормативных правовых актов рассматриваются вопросы восстановления государственной независимости Азербайджана в 1991 году, подчеркивается преемственность в истории развития Азербайджанской государственности. Исследованию вопросов предпослана характеристика социально-экономических, политических и правовых предпосылок приобретения республикой государственной независимости.

**Ключевые слова:** независимость, декларация, суверенитет, Конституционный закон, Конституционный Акт, конституционно-правовой статус, права и свобода

## LEGAL BASES OF RESTORATION OF THE STATE INDEPENDENCE OF AZERBAIJAN

**M.F.MALIKOVA, Kh.J. ISMAYILOV**

### SUMMARY

Struggle for independence of the Azerbaijani people during the XX century came to victorious ends twice - at the beginning and at the end of the last century. Along with political, social and economic preconditions, legal preconditions have also played an important role for the acquisition of independence. The article considers legal bases of restoration of state independence of Azerbaijan in 1991, exposes the analysis of regulatory legal acts causing restoration of the state independence.

**Key words:** independence, declaration, sovereignty, Constitutional Law, the Constitutional Act, the constitutional-legal status, the rights and freedom.